# Dalanda qalan ölkə

**Azərbaycan Zəngəzur dəhlizinin açılması üçün praktiki addımlar atır. Ermənistan tərəfi isə dörd ildən çoxdur bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir.**

## Ermənistan qlobal layihələrdən özünü təcrid etməklə milli maraqlarını millətçilik hikkəsinə qurban verir

Keçən ay nəqliyyat məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirədə bu fikirlər bir daha səsləndirildi. Həmin mühüm məsələdən geniş bəhs edərkən Prezident İlham Əliyev ermənilərin "Sülh kəsişməsi" adlı bir layihəni ortalığa atdığını da diqqətə çatdırdı: "Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o bəndə diqqət yetirsin. Yenə də deyirəm, onların dırnaqarası layihəsi Azərbaycansız tamamilə əhəmiyyətsizdir. Sadəcə olaraq, vaxt uzatmaqla məşğuldurlar, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğuldurlar. Yenə də Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac verirlər. Bunun nəticəsində faktiki olaraq bu günə qədər Azərbaycanın ayrılmaz hissəsi - Naxçıvan Muxtar Respublikası ilə bizim ən qısa və ən rahat bağlantımız yoxdur".

Doğrudur, Naxçıvan Muxtar Respublikasının lazım olan ehtiyaclarını dövlətimiz müxtəlif yollarla təmin edir. İlk növbədə sərnişinlər İranın ərazisindən keçir və yüklər də oradan daşınır. Gürcüstan, Türkiyə ərazilərindən də bu bağlantı yaradıla bilər. Amma onlar iqtisadi cəhətdən daha əlverişsizdir, həmçinin yol uzanır, vaxt gedir. Ona görə də prioritet ən rahat yoldur. Prezidentimiz bir daha bəyan etdi ki, heç bir yoxlamadan keçmədən, heç bir narahatlıqla üzləşmədən Azərbaycandan-Azərbaycana maneəsiz keçid olmalıdır: "Biz görəndə ki, Ermənistan tərəfi yenə də özünü qeyri-səmimi aparır, İran İslam Respublikası ilə müvafiq razılaşma əldə edilmişdir və Ermənistanı baypas edən avtomobil körpüsünün tikintisi də, artıq bu layihə də icra edilir və yaqin ki, bu il tamamlanacaq. İkinci körpü də inşa ediləcək, artıq Naxçıvan Muxtar Respublikasında. Birinci körpü Zəngilan rayonu ərazisində inşa edilir. Beləliklə, Ermənistan bundan sonra da dalan ölkə kimi davam edəcək və onların tranzit ölkəyə çevrilmə arzuları elə onların gözlərində qalacaq. Özləri daha çox itirəcəklər, nəinki biz. Ona görə bu məsələ diqqət mərkəzində olacaq və həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında biz daim bir məsələni qeyd edirik ki, Azərbaycandan-Azərbaycana rahat və azad keçid olmalıdır. Bu, bizim tələbimizdir".




Dalan ölkə... Bu vəziyyətə Ermənistan özünün böyük səhvləri və cinayətləri nəticəsində düşüb. Belə ki, son onilliklər regionda həyata keçirilən qlobal layihələrin heç birinin iştirakçısı deyil. Öz xislətinə görə bu layihələrin hamısından qıraqda qalıb. Neft və qaz ixracı marşrutları, dəmir yolu xətləri, nəqliyyat dəhlizləri onun ərazisindən yan keçir. Bir sözlə, Ermənistan bu sahədə də özünü çıxdaş bir ölkəyə çevirib.

Azərbaycan həmin dövrdə dünya əhəmiyyətli nəhəng layihələr həyata keçirib və bu istiqamətdə işləri uğurla davam etdirir. Hələ keçən əsrin sonunda ölkəmiz Bakı-Novorossiysk, Bakı-Supsa kimi neft kəmərlərini işə salıb. Ardınca, XXI əsrin əvvəlində üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri çəkilib. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə boyu uzanan bu kəmər Xəzərin ölkəmizə məxsus sektorundan çıxarılan nefti dünya bazarlarına çatdırır.

BTC bütün regiona xeyirbərəkət gətirən kəmərdir və belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir. Ermənistan, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsindən kənarda qalıb. Təbii ki, bundan sonra çəkilən müxtəlif təyinatlı xətlər də Ermənistandan keçməyib. Azərbaycan qonşu Gürcüstan və Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunu çəkib. "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəsi olan bu yolla daşımalar ildən-ilə artır.

Ermənistan isə bütün bu nəhəng işlərə kənardan, düşdüyü iqtisadi dalandan seyrçi kimi baxır. Səbəb aydındır. Azərbaycan bu qlobal layihələri həyata keçirəndə torpaqlarımızın böyük bir hissəsi işğal altında idi. Təbii ki, neçə-neçə bölgəmizi tar-mar edən, insanlarımızı soyqırımına məruz qoyan cinayətkar qonşu ilə heç bir layihədə tərəfdaş ola bilməzdik. Dövlətimizin başçısı o vaxt qəti bildirmişdi ki, erməni faşistləri torpaqlarımızdan çıxmayana qədər vəziyyət bu cür də davam edəcək. Beləliklə, Ermənistan siyasi, iqtisadi, enerji və nəqliyyat dalanına çevrilmişdi.

İndi dünyanın müxtəlif yerlərində gedən iqtisadi proseslər, çətinliklər, böhranlar Azərbaycan iqtisadiyyatının dayanıqlı olduğunu göstərir. Biz güclü iqtisadiyyat yaratmışıq və iqtisadi asılılığı tamamilə aradan qaldırmışıq. Əgər kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, zəfər çala bilməzdik. Yəni qalib gəlmək üçün önəmli layihələr icra etmişik. Bu gün dünyanın və bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs təşəbbüsümüzlə icra edilən layihələrin həm ölkəmizə, həm də tərəfdaşlarımıza nə qədər böyük fayda gətirdiyini görsün. Bu nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin, dostlarımızın, müttəfiqlərimizin sayı onlarladır.

Dövlətimizin gücü, Müzəffər sərkərdəmizin iradəsi və zəkası ilə, igidlərimizin qanıcanı bahasına artıq mənfur işğalçını torpağımızdan qovmuşuq. Şanlı qələbə qazanmışıq. İndi dövlətimiz, Prezidentimiz böyük humanizm göstərərək erməniləri regionda həyata keçirməyə başladığımız layihələrdə iştirak etməyə çağırır. Lakin ermənilərin xisləti bu mərhələdə də özünü aydın nümayiş etdirir. Çünki onlar sülh adamı deyil, qurub-yaratmağa maraqları yoxdur, işləri-peşələri dava-dalaşdır. Kapitulyasiya etdiklərinə, üzərlərinə öhdəlik götürdüklərinə baxmayaraq, verdikləri sözdən qaçmaq istəyirlər.

Məlumdur ki, 44 günlük Vətən müharibəsindən sonra Zəngəzur dəhlizi məsələsi beynəlxalq gündəliyə, beynəlxalq leksikona salınıb. Bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir.

Prezident İlham Əliyev sözügedən müşavirədə Azərbaycan xalqının bütün olub-keçənləri, o cümlədən Zəngəzuru da unutmadığını deyib: "Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq. Yenə də deyirəm, bizim Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan-Azərbaycana keçid verməlidir".

Ermənistanda isə Zəngəzur adı gələndə vahiməyə düşürlər... Vaxt qazanaraq bu layihədən kənarda qalmağa cəhd edirlər. Görünür, Ermənistan dalanda qalmağa artıq vərdiş edib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 4 fevral (№ 24).- S.12.